

**Yusif Məhəmməd oğlu Mahmudov**
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, tarix üzrə fəlsəfə doktoru

# Xaqani Şirvani və Nəsimi yaradıcılığında təbiət-insan

## Multikultural dəyərlər

(əvvəli ötən sayımızda)





Şairin poeziyasının əsasını təşkil edən kamil insan həyatın yaradıcısı, özəyi, Yer kürəsinin əşrəfidir. Kamil insan dedikdə şair dininə və dilinə görə heç bir fərqliliklərin nəzərə alınmadığı bir bəşəri varlıq nəzərdə tutur.Tədqiqatçılar haqlı olaraq qeyd edirlər ki, bütün insanları sevmək, onları doğru yola aparmaq, cahillikdən uzaqlaşdırmaq, bərabər imkanlar yaratmaq, hamıya eyni dəyər vermək, saflaşdırmaq, Tanrıya yaxınlaşdırmaq, onları mücərrəd yerlərdə deyil, qəlbimizdə axtarmaq Nəsimi fəlsəfsinin əsasını təşki edir. Onun üçün insanın hansı millətdən olmasının heç bir önəmi yoxdur. Bütün bu fikirlər bəşər övladına multikultural yanaşmanın fəlsəfi təzahürüdür:

**İskəndəri zülmətə irişdirdimi döndüm,**
**Xızrın sifətin çeşmeyi-heyvanə yetirdim.**
**Həm Yusifi mən çahi-biyabanə buraxdım,**
**Həm atəşi mən Musayi-İmranə yetirdim.**
**Mən ol Musayi-İmranəm ki, daim aşiqi-Turəm,**
**Və leykin xeyli müddətdir cənabından ki, məhcurəm**
**Gərçi dəmi-Musayəm nurilə nar içində,**
**Həm bir ölü dirildən İsayi-möcüzatəm. (Paralel. - 2020.- 6 fevral. -N 23/24. - S. 10.)**

Yaxud "Erməni" şeirində xalqımıza qarşı düşmən mövqedə dayanan məlum xalqdan olan bir qız haqqında yazdıqları əslində ülvi gözəlliyin tərənnümünə həsr edilib. O, burada ülviyyəti bütün xarakterlərdən üstün sayır. Başqa sözlə, bu tip keyfiyyətlərin hər şeydən üstün olduğunu vurğulayır.

**Dərdmənd etdin məni, ey dərdə dərman erməni,**
**Olmuşam eşqin yolunda bəndəfərman, erməni.**

**Nə pəri, nə adəmi bu şəkl ilə mən görmədim,**
**Cənnəti hurimisən, yoxsa ki, rizvan, erməni?**

**Anca kim, səy eylədim nazik camalın görməyə,**
**Zərrəcə yumşalmadın, ey könlü zindan erməni.**

**Örtgil ol ay üzünü kim, çeşmi-naməhrəm görər,**
**Yoxsa ki, dindən dönər çox-çox müsəlman, erməni.**

**İsayi-Məryəm həqiçün, heç qərarım qalmadı,**
**Didəmi giryan edərsən, bağrımı qan, erməni.**

**Qorxuram mən dərvişə sən deyəsən din tərkin et,**
**Necə ki, bağladı zünnar Şeyx Sənan, erməni.**

**Xanda bir xaç əhli varsa qamusun seyr eylədim,**
**Bulmadım mən sən təki bir cani-canan, erməni.**

**Bir sual etdi Nəsimi sən büti-mehparədən,**
**Lütf ilə söyləşə gör, ey ləli xəndan, erməni.**

Apardığımız tədqiqatlar göstərir ki, klasssik Azərbaycan ədəbiyyatı bir çox cəhətdən multikultural fəlsəfə və tolerant baxışlar üzərində inkişaf etmişdir. Qeyd etmək lazımdır ki, orta əsrlər Azərbaycan ədəbiyyatı ümumşərq müsəlman mədəniyyətinin tərkib hissəsi idi. Azərbaycan ədəbi fikir nümayəndələri öz ana dilləri ilə bərabər, ərəb və fars dillərində də mükəmməl yaradıcılıq faktları ortaya qoymuşdular. Azərbaycan ədəbi mühiti dini zəmində də ümumşərq müsəlman mühitinin tərkibinə daxil idi. Klassik Azərbaycan ədəbiyyatı üçün ortaq ədəbi mühit multikultural düşüncə və tolerantlığın formalaşmasına səbəb olmuşdur. Beləliklə qeyd edə bilərik ki, klassik Azərbaycan ədəbiyyatı özünün bütün təbii cəhətləri ilə multikultural fəsləfəyə və tolerant baxışlara söykənirdi.

Dahi Azərbaycan şairləri Xaqani Şirvani və İmadəddin Nəsiminin yaradıcılığında humanist, bəşəri dəyərlərin təbliği və təsvirinə daim geniş yer verilməsi göstərir ki, onlar ayrı-ayrı fərdi, dini və etnik qrupların maraqlarının deyil, insanlıq fəlsəfəsinin təbliğatçısı, tərənnümçüsü kimi çıxış etmişlər. Bu dahi sənətkarlar bütün ömrlərini həmin ideyaların təbliği və təşviqinə həsr etmişlər.

Nəsiminin poeziyasında sevgi, mərhəmət, ədalət və insanın dəyəri kimi ümumbəşəri fikirlərin önəmli yer tutması, insanları bölmədən, dilindən, dinindən və irqindən asılı olmayaraq sevməyə çağırması multikultral dəyər kimi bu gün daha əhəmiyyətli görünür. Bu cəhətdən "Məndə sığar iki cahan..." məşhur misrası xarakterikdir və insanın böyüklüyünə, əhatəli varlıq olmasına işarədr. O, insanı kainatın mərkəzi kimi təsvir edir və hər bir insanın ilahi hikmətə malik olduğuna diqqəti cəlb edir. Bu baxış, islam dünyasında yalnız bir məzhəb və ya icmanın deyil, ümumiyyətlə, bütün bəşəriyyətin dəyərli olduğunu göstərən universal yanaşmadır. Fəlsəfə və din tarixi göstərir ki, Nəsimi dövründə fərqli dini cərəyanlar arasında ciddi ziddiyyətlər var idi. Ona görə də bu şair-filosof dinin insanı azad etməli olduğunu vurğulamaqla məzhəbçilik və fanatizmə qarşı çıxırdı. Təsadüfi deyildir ki, onun ideyaları bu gün də multikultural və tolerant cəmiyyət quruculuğu baxımından aktualdır.

***Nəsiminin poeziyasında sevgi, mərhəmət, ədalət və insanın dəyəri kimi ümumbəşəri fikirlərin önəmli yer tutması, insanları bölmədən, dilindən, dinindən və irqindən asılı olmayaraq sevməyə çağırması multikultral dəyər kimi bu gün daha əhəmiyyətli görünür. Bu cəhətdən "Məndə sığar iki cahan..." məşhur misrası xarakterikdir və insanın böyüklüyünə, əhatəli varlıq olmasına işarədr. O, insanı kainatın mərkəzi kimi təsvir edir və hər bir insanın ilahi hikmətə malik olduğuna diqqəti cəlb edir. Bu baxış, islam dünyasında yalnız bir məzhəb və ya icmanın deyil, ümumiyyətlə, bütün bəşəriyyətin dəyərli olduğunu göstərən universal yanaşmadır. Fəlsəfə və din tarixi göstərir ki, Nəsimi dövründə fərqli dini cərəyanlar arasında ciddi ziddiyyətlər var idi. Ona görə də bu şair-filosof dinin insanı azad etməli olduğunu vurğulamaqla məzhəbçilik və fanatizmə qarşı çıxırdı. Təsadüfi deyildir ki, onun ideyaları bu gün də multikultural və tolerant cəmiyyət quruculuğu baxımından aktualdır...***

Burdan belə nəticəyə gəlmək olar ki, Nəsimi öz dövrünün sərhədlərini aşaraq, müxtəlif dillərdə yazmaqla, fərqli dini-fəlsəfi baxışlara müraciət etməklə və insanı ali varlıq kimi təqdim etməklə multikultural dəyərləri təbliğ etmişdir. Onun yaradıcılığı müasir dünyada dinlərarası və mədəniyyətlərarası dialoq üçün mühüm mənbələrdən biri hesab edilə bilər. (16,

Xaqani Şirvani və İmadəddin Nəsiminin yaradıcılığı yalnız filosof-şair kimi təkcə ədəbiyyat və fəlsəfə tarixi üçün deyil, elmin ayrı-ayrı sahələri üçün də zəngin mənbədir. Əhalinin erkən dövrlərdə ekoloji fikirlərini öyrənmək baxımından bu klassiklərin yaradıcılıq nümunələri xüsusi əhəmiyyət daşıyır. Onların əsərlərində çağdaş elm üçün faydalı ola biləcək yönləndirici elmi informasiyalar vardır.

Tədqiqatlarımız göstərir ki, Azərbaycanda əhalinin ətraf mühitə münasibəti klassiklərimizin yaradıcılığında əsrlər boyu öz əksini tapmış, təbiətə qayğıkeş münasibətin təbliği və biomüxtəlifliyin saxlanması istiqamətində əhəmiyyətli iş görmüşdür.

Xaqani Şirvani, İmadəddin Nəsimi və digər klassiklərimizin yaradıcılığını dərindən öyrənməklə, elmin müxtəlif istiqamətlərində əhatəli araşdırılmamış problemlərin açılmasına nail olmaq mümkündür.

Xaqani Şirvaninin yaradıcılığı multikulturalizmin erkən nümunələrindən biri kimi diqqətəlayiqdir. O, fərqli dinlərə, dillərə və mədəniyyətlərə hörmətlə yanaşmış, insanların birgə-yaşayışını və mənəvi dəyərlərini yüksək qiymətləndirmişdir.

***Nəsimi öz dövrünün sərhədlərini aşaraq, müxtəlif dillərdə yazmaqla, fərqli dini-fəlsəfi baxışlara müraciət etməklə və insanı ali varlıq kimi təqdim etməklə multikultural dəyərləri təbliğ etmişdir. Onun yaradıcılığı müasir dünyada dinlərarası və mədəniyyətlərarası dialoq üçün mühüm mənbələrdən biri hesab edilə bilər.***

***Əfzələddin Xaqaninin və İmadəddin Nəsiminin əsərləri təkcə Şərq ədəbiyyatı üçün deyil, ümumilikdə, bəşəri düşüncənin inkişafı baxımından elmin müxtəlif sahələrinin öyrənilməsinə böyük töhfədir.***